# Futbol qalib, İtaliya çempion oldu




**İyulun 11-də Bakı vaxtı ilə saat 23:00-da İtaliya – İngiltərə milli komandalarının Londonda, əfsanəvi "Uembli"də keçirilən qarşılaşmasını bütün dünya azarkeşləri və futbol mütəxəssisləri Avro –2020-dən öncə tamamən yenilənmiş iki nəhəng yığma futbol komandasının qarşılaşması hesab edirdilər. Turnirin geridə qalan matçları da bunu ehtiva edirdi.**

Bu, həqiqətən layiqli və bərabər final matçı idi. Həm də dünyanın milyonlarla tərəfsiz futbol azarkeşlərini təqribən tən bölən bir final. Bu bölgünün sərhədi, matç yaxınlaşdıqca ekran qarşısında səbirsizlənən azarkeşlərin hər birinin ürəyindən keçirdi. COVID -19 pandemiyasının dünyaya meydan oxumasına



baxmayaraq, bütövlükdə, çox uğurla keçən və bir çox möhtəşəm matçlarla tarixə yazılan Avro – 2020-nin tərəfsiz azarkeşləri birmənalı olaraq çempionun yalnız güclü və baxımlı oyun nümayiş etdirən komanda olacağına əmin idilər. Amma Bakıda Olimpiya stadionunda dörddəbir pley off matçından qalib ayrılıb "Uembli"də final matçına vəsiqə qazanmaq üçün Londona daha böyük coşqu ilə gedən Danimarka millisinin İngiltərə yığmasına hakimin mübahisəli 11 metrlik cərimə zərbəsi qərarı ilə uduzması çoxlarının ürəyinə xal salmışdı və istəyirdilər ki, barı finalda ilahi ədalət öz yerini tapsın.

Əlbəttə, qarşılaşmanın İngiltərə millisi üçün də, matçı idarə edən növbəti niderlandlı hakim üçün də asan olmayacağı bəlli idi. "Şirlər" bu gün "xamelyon-komanda" ilə qarşılaşırdılar. Nədən belə deyirəm, çünki İtaliya millisi qrup mərhələsində topa sahibolma üstünlüyü və hücum üslubunda oyunu ilə özünü çoxlarına sevdirə bildi. Lakin pley-off matçlarında üslubunu dərhal dəyişdi və ənənəvi İtaliya futbolu oynamağa başladı. Daha "Skuadra Adzurra"nın oyunu elə də diqqətçəkən, parlaq oyun deyildi. Komanda ehtiyatlı və əks-hücumlara üstünlük verən müdafiə futboluna qayıtmışdı. Hətta İspaniya ilə yarımfinal qarşılaşmasında birmənalı şəkildə müdafiə oyunu oynadı və italyan inadkarlığı, italyan oyun üslubu, qələbəyə olan italyan təşnəsi ona finala yol açdı. "Skuadra Adzurra" məhz bu qələbə yolunu davam etdirmək əzmi ilə final oyununa çıxdı.

Deyirlər ki, ingilislər, adətən, öz həyəcan dolu hisslərinə həddən ziyadə diqqət yönəldirlər. Onlar hisslərini bütün mədəni vasitələrlə – ədəbiyyat, teatr və hətta roke-n-rolla belə dünyanın diqqətinə çatdırırlar. Amma italiyanlar da onlardan geridə qalmırlar. Niyə də



yox, "Skuadra Adzurra" özünün yeganə Avropa çempionluğu titulunu 53 il əvvəl qazanıb. Sonra isə iki finalın acısını yaşayıb, Üstəlik, son dünya çempionatının final mərhələsinə yüksələ bilməyib. Sizcə, istiqanlı və çılğın italiyanlar bundan böyük məyusluq yaşamayıblarmı? Ona görə də italiyanlar bu qarşılaşmaya qələbə acları kimi çıxmışdılar və rəqibin əsəblərini sevimli spagettiləri kimi "çəngələ dolamağa" hazır idilər.

İngiltərəyə gəldikdə isə onların qələbəsi rəqiblərinin əlində uzun müddət əsas kozur kimi qalacaqdı. Onlar Sterlinqi hər addımda gözə soxub bu qələbəyə mənfi çalar verəcəkdilər. Əlbəttə, "şirlərin" azarkeşləri üçün bunun heç bir əhəmiyyəti yox idi. Axı, bunda onların bir günahı yoxdur və onlar da uzun müddətdir ki, möhtəşəm qələbə gözləyirlər. Ona görə də nə yolla və nəyin bahasına olur-olsun, onlar qələbənin gətirdiyi sevinci yaşamaq və bundan həzz almağa hazır idilər. Onların qələbəsi bütövlükdə, təmiz və inandırıcı qələbə olardı. Bu qələbədə cərimə meydançasına düşən bir oyunçunun boz kölgəsi isə yalnız bu güclü və istedadlı komandanın saldığı güclü işığın nəticəsi ola bilərdi.

Deyəsən axı, bu qələbə elə oyunun ilk dəqiqələrindən üfüqdən görünməyə başladı. Baş məşqçi Qaret Sautqeyt yenə startda komandanı meydana beş müdafiəçi ilə buraxdı. Almaniya ilə matçda da eynən bu sistemi – italiyan-



ların sxeminin əksini tətbiq etmişdi ki, rəqibin hücumlarının qarşısını ala bilsin. İtaliya ilə finalda motiv bu idi: müdafiədə daha bir futbolçu bu xətti həddən artıq yükləməyin qarşısını alsın. Üç mərkəz müdafiəçisi və hücuma meyilli iki cinah müdafiəçisi ilə oyuna başlayan Sautqeytə qarşı Roberto Mançini komandada yarımfinaldan fərqli elə bir dəyişiklik etmədi və oyun prinsipini də dəyişmədi.

İngilislərin heyətində sağ cinahda hücuma meyilli müdafiəçi kimi meydana çıxan Tripper bütün bu cinaha görə məsuliyyət daşıyırdı. Artıq oyunun ikinci dəqiqəsində məhz bu sağ kənar müdafiəçisi sol cinahdan cərimə meydançasında nəzarətsiz qalan sol cinah müdafiəçisi Lyuk Şouya uzaq hava ötürməsi etdi. Qaret Sautqeytin sxemi üçün hücumun genişliyinin bütün qaydalarına əsasən, bir cinah müdafiəçisindən digər cinah müdafiəçisinə edilən bu ötürmə əsl mənada etalon oldu. İngilis futbolçu topa yerə düşməyə belə macal verməyib birbaşa Donnarummanın qoruduğu qapının yaxın küncünə güclü zərbə vurdu. İngilislər irəli çıxdılar.

Erkən qol matçın gedişinə böyük təsir göstərdi. Əlbəttə, bunu İngiltərənin hesaba oynamaq imkanı əldə etməsi anlamında demirəm. Ona qalsa, İngiltərə onsuz da turnir başlayandan hər oyunda 0 – 0 hesabının onu qane etdiyi təəssüratı yaradan oyun nümayiş etdirirdi. Sadəcə, bu mənada deyirəm ki, İtaliya turnir başlayandan heç vaxt qapısından birinci qol buraxmayıb. Onlar Avstriya və Belçika komandalarından hesabda 2 – 0, İspaniyadan 1 – 0 irəli olanda qapılarında top görüblər. Roberto Mançininin yetirmələri məhz buna görə bir qədər çaş-baş vəziyyətə düşdülər. Bu baxımdan nəyin bahasına olur-olsun, hesabı bərabərləşdirmək italiyanlar və onların baş məşqçisi üçün yeni sınaq idi.

Bu qoldan sonrakı ilk dəqiqələrdə İngiltərə millisi bir-iki dəfə əks hücuma keçməyə səy göstərdi, lakin bunu da çox ehtiyatla edirdi və qapıları qarşısında təhlükəli vəziyyətlə üzləşməkdən sanki qorxurdu. Əslində, Lyuk Şounun ikinci dəqiqədə vurduğu zərbə bütöv birinci hissədə İngiltərənin qapıya yeganə zərbəsi olaraq qaldı. Dəqiqələr ötdükcə İngiltərənin müdafiəyə üstünlük verməsi daha aydın görünürdü. Lyuk Şou və Tripper də daha az-az hücumlara qoşulurdular.

Əslində matçın onuncu dəqiqəsindən sonra İtaliya millisi tədricən təşəbbüsə yiyələnməyə və öz oyununu oynamağa başladı. Mançininin yetirmələri topa daha çox sahib olsalar da, rəqibin sıx müdafiəsini heç cür yara bilmirdilər. İngiltərə taktiki düzülüşdə daim 5-4-1 sisteminə keçirdi. Hətta bir çox hallarda Keyn də müdafiəçilərin köməyinə gəlirdi. Sautqeyt artıq əməllibaşlı hesaba oynamağa başlamışdı. Nəticədə, topa sahibolmada 65 faizin 35 faizə nisbətində İtaliya komandası üstün idi və çərçivəyə vurulan zərbələrin sayında da hesab 6 – 1 italyanların xeyrinə idi. Doğrudur, bu zərbələrin əksəriyyəti uzaq məsafədən endirildiyindən elə də təhlükəli olmurdu. Yəni, italiyanların formal olaraq maksimum hökmranlığı qarışılığında ingilislər faktiki olaraq oyuna maksimum nəzarət edirdilər. Ona görə də birinci hissədə belə bir sual yaranırdı: İtaliya oyunu özünə lazım olan axarda necə dəyişə bilər?

Oyunun ikinci hissəsi ənənəvi şablon üzrə davam etdi – "topa sahibolmaya qarşı avtobus". Hətta ikinci hissənin 10 dəqiqəsi ərzində italyanlar topa sabibolmada 80 faizlə rekord vurdular. Bu, bir iki cərimə zərbəsi ilə nəcələnsə də yenə heç bir fayda vermədi. Oyunun belə gedişi nominal ev sahibləri olan İtaliya komandasını daha da açıq oynamağa məcbur edirdi.

Pikfordun qapısı qarşısında təzyiq artsa da, təhlükəli vəziyyətlər yox idi. Lakin növbəti künc zərbəsi oyunun taleyinə öz əsaslı düzəlişini etdi. Künc zərbəsindən qapı meydançasına verilən hava ötürməsindən sonra yaranan qarışıqlıqda Veratti başla qapını nişan aldı. Pikford topu çıxara bildi, lakin yaxınlıqda olan Bonuççi topu tora qovuşdurdu.

Oyuna tam nəzarətin fonunda buraxılan qol ingilislərə çox güclü zərbə oldu və buna təkcə taktiki yox, həm də emosional cavab verilməli idi. Bu dəfə də praqmatik oyunu ilə diqqət çəkən Sautqeyt çətin ki, 25 faizlik topa sahibolma və 0 zərbə ilə qapısı önündə ikimərtəbəli avtobus yarada biləydi. Ancaq belə də oldu. İtalyanların cavab qolundan sonra ingilislər rəqib qapısına yalnız 85-ci dəqiqədə zərbə vura bildilər və bu da uzaq məsafədən qeyri-dəqiq bir zərbə oldu. Bundan əvvəl isə Berardı Bonuççinin əla ötürməsindən sonra İtaliyaya qələbə gətirə biləcək topu qapıdan keçirə bilmədi.

Matçın əsas vaxtının son 10 dəqiqəsi nəhayət, İngiltərə topu özünə qaytardı. Qarşılıqlı pressinqlər başladı. Yenə də yaxşı müdafiə xarakterli nəzarət gedirdi, lakin hücumda heç bir kəskin vəziyyət yaranmırdı. Sanki heç-heçə komandaları təmin edirdi. Əlavə vaxtın birinci hissəsində İtaliya yenidən təşəbbüsə yiyələndi. Veratti əvəzlənəndən sonra komanda öz meydançasından uzaq ötürmələrlə təhlükəli vəziyyətlər yaratmağa çalışırdı.

İngilislərin yarada biləcəkləri ən parlaq hücum vəziyyəti yaratmaq cəhdi isə kapitan Kellininin Sakanın yaxasından tutub ona hücuma sıçramağa imkan verməməsi ilə başa çatdı və haqlı olaraq sarı vərəqə ilə cəzalandırıldı. Bu isə o demək idi ki, italyanların hər iki mərkəz müdafiəçisinin sarı vərəqəsi var və hər an növbəti cərimədən sonra oyundan kənarlaşdırıla bilərlər. Əvəzləmələrə ehtiyac olsa da, Sautqeyt buna tələsmirdi.

Əlavə vaxtın ikinci hissəsində "Skuadra Adzurra" bütün oyun ərzində ilk dəfə dərin müdafiəyə keçdi. Bu, oyunu tamamən darıxdırıcı etdi.

İngiltərənin baş məşqçisi Qaret Sautqeyti bütün turnir boyu darıxdırıcı futbol oynadığına görə tənqid edirdilər. Elə mən də bunu yazmışdım. Onların isə bir əks-arqumenti var idi: ingilislər turnirə əylənməyə və azarkeşləri əyləndirməyə gəlməyiblər, turnirin qalibi olmaq istyirlər. Onlar sistem üzrə fəaliyyət göstərirlər, riski minimuma endirirlər. Onlar 11 metrlik zərbələrə -"lotereyaya" güvənirlər. Sən demə, heç ona da hazır deyilmişlər. Məəttəl qalırsan, matçın əlavə vaxtının son dəqiqələrində məhz 11 metrlik zərbələri vurmaq üçün oyuna buraxılan iki oyunçudan heç biri penalı qola çevirə bilmədi. Daha qəribəsi isə sonuncu, ən məsuliyyətli zərbəni vurmağın, rəsmi turnirlərdə heç vaxt 11 metrlik zərbə vurmayan 19 yaşlı Sakaya həvalə olunması idi. Uğursuz zərbə və Donnarumma topu dəf etməklə İtaliyanı Avro 2020-nin çempionu edir...

Oyundan sonra çoxları İngiltərə millisinin məğlubiyyətindən məyus olub və buna təəssüflənir. Lakin birinci hissədə bir və ümumiyyətlə, 90 dəqiqəyə qapıya cəmi bir dəqiq zərbə vuran komandanın məğlubiyyətinə təəssüflənməyə dəyərmi? Məncə yox. Ona görə də İngiltərə millisindən fərqli olaraq, heyətində elə də çox



istedadlı futbolçu olmayan, lakin öz potensialından maksimum istifadə edən və bütün turnir boyu pozitiv futbol oynayan İtaliyanın qələbəsini, bütövlükdə, futbolun qələbəsi hesab edirəm.

Və Avro – 2020-dən yazdığım son reportajımı, İtaliyaya faktiki qələbəni əldən verməmək üçün oyunda və 11 metrlik zərbələrdə misilsiz qollar vuran Bonuççinin müsahibəsinin aşağadakı sözlərilə bitirirəm: "Biz, Danimarka ilə oyundan sonra hər gün eşidirdik ki, kubok evə qayıdacaq, Londona. Bu, bizi idmansayağı bərk qəzəbləndirirdi. Onalara yazığım gəlir, lakin əsl həqiqətdə kubok Romaya uçur və indi italyanlar bundan məmnun ola bilərlər. Bu qələbə həqiqətən sübut edir ki, zirvəyə qalxmaq üçün daim özünə təkan verməlisən. Siz bunu dünyada hamıdan çox istəməlisiniz. Bu, İtaliya futbolunun dirçəlişidir və mən əminəm ki, komanda və bu böyük məşqçi qəzetlərin səhifəsinə hələ çox düşəcəklər. Biz heç vaxt bir yerdə olmaqdan və ya bir birimizlə vaxt keçirməkdən yorulmadıq, bizdə güclü birlik arzusu var idi, bu inanılmazdır!"

Beləliklə, İtaliya ikiqat Avropa çempionu oldu və bunu möhtəşəm, əzmkar və baxımlı oyunu ilə qazandı. Bizdən isə onu təbrik etmək qalır: "Çempionluğun mübarək, İtaliya!"

***İlqar RÜSTƏMOV,***
***"Xalq qəzeti"***